# "Heç zaman azərbaycanlı olduğumu gizlətməmişəm"

## Lütfi-Zadə: "Heç vaxt hiss etməmişəm ki, vacib insanam. Özümü başqaları kimi çox adi bir insan hesab edirəm"

**Ötən ilin noyabr ayında Azərbaycan öz sevimli oğlunun, dünya şöhrətli alim Lütfi-Zadənin ölkəmizə səfərinin sevincini yaşadı. Kəşf etdiyi elmi nəzəriyyələrlə bütün dünyaya səs salan və hətta Yaponiyanı belə heyrətdə qoyan, adı dünya elminin nəhəngləri - İsaak Nyuton, Albert Eynşteyn, Ernest Rezerford, Blez Paskal, Norbert Viner və başqaları ilə bir sırada çəkilən bu dahi insanın azərbaycanlı olması bizdə yalnız qürur hissi doğura bilər. Lütfi-Zadə özü isə deyir ki, heç zaman azərbaycanlı olduğumu gizlətməmişəm, əksinə, bununla qürur duymuşam.**

Hazırda alimin altı mühüm nəzəriyyəsi elm və istehsalatda geniş tətbiq olunur. Ona dünya şöhrəti qazandıran, dünya elmində inqilab sayılan qeyri-səlis məntiq nəzəriyyəsi aparıcı dünya şirkətlərinə inanılmaz məbləğdə gəlir gətirib. Bu nəzəriyyə 1965-ci ildə işlənib, hazırlanıb. Amerika elmi ictimaiyyəti bu nəzəriyyəni uzun müddət qəbul etməsə də, nəzəriyyə ötən əsrin 80-ci illərində yapon alimlərinin diqqətini cəlb edib və yaponlar ondan yararlanmaq qərarına gəliblər. Lütfi-Zadə nəzəriyyəsinin tətbiqi gündoğar ölkəyə milyardlar qazandırıb. Bu gün Yaponiyanın bir çox nüfuzlu şirkətləri qeyri-səlis məntiq texnologiyasından foto və vidiokameralar, paltaryuyan maşınlar, vakuum kimyəvi təmizləyiciləri istehsalında, avtomobillərin, qatarların, sənaye proseslərinin idarə olunmasında geniş istifadə edirlər.

Lütfi-Zadə 1989-cu ildə qeyri-səlis məntiq nəzəriyyəsinin sənayedəki uğurlarına görə Yaponiyada elm adamlarına verilən ən yüksək mükafat - "Honda" mükafatı ilə təltif olunub. Amerikalılar gec də olsa, Lütfi-Zadə nəzəriyyəsindən faydalanmağa başlayıblar. Bu gün onun nəzəriyyəsini ABŞ-ın çox məşhur şirkətləri tətbiq edirlər. Titula gəldikdə isə, o, dünya alimlərindən yalnız biriki nəfərə nəsib olmuş - çalışdığı Berkle universitetinin ömürlük fəxri professoru adını qazanıb. Dünyanın bir çox akademiyalarının fəxri akademiki, universitetlərinin fəxri professoru olması və ayrı-ayrı yüksək mükafatlar, titullar qazanması ilə yanaşı, Lütfi-Zadə dünyada əsərlərinə ən çox istinad edilən alim sayılır. O, bir çox xarici ölkə akademiyalarının üzvüdür. Çoxlu sayda mötəbər cəmiyyətlərin və fondların mükafatlarına layiq görülüb, medallarla təltif edilib. Lütfi-Zadə onlarla xarici dövlət və ictimai təşkilatların fəxri doktorudur. Yaratdığı nəzəriyyələrlə dünya elmində inqilabi çevriliş edən və dünyanın ümumi mənzərəsini dəyişdirən belə bir insanın soydaşımız olması ilə hər birimiz fəxr edə bilərik. Sonuncu dəfə 1965-ci ildə Azərbaycanda olan və aradan 43 il keçəndən sonra öz doğma vətəninə gələn Lütfi-Zadə ilə hər kəslə həmsöhbət olmaq istəyində idi. Həyatının böyük hissəsini Amerika mühitində yaşayan 87 yaşlı alimin ona yaxınlaşan hər kəslə mülayim rəftarı, onları sona qədər dinləməsi yadıma amerikalı jurnalist Betti Bleyerin alim haqqında söylədiklərini xatırladırdı: "İnsanlarla danışmağı sevir. Çox mülayim və istiqanlıdır".

Sonuncu cümlə azərbaycanlıların xarakterinə verdikləri ümumi qiymətdir. Demək, bu amerikalı qadın da Lütfi-Zadə ilə ünsiyyətdə olduğu müddətdə onu xarakterizə edərkən məhz belə qənaətə gəlib.

Bu dahi şəxsiyyətlə görüşümüz noyabr ayında onun Bakıya gəlişi zamanı Heydər Əliyev adına İdman-Konsert Kompleksinin qarşısına təsadüf etdi. Simasında həddindən artıq nurani görkəm olan bu insanın əlimi sıxaraq gülərüzlə və diqqətlə məni dinləməsi, dediklərimə razılıq əlaməti olaraq hərdən başını tərpətməsi, "Hələ ki, bir neçə gün Bakıdayam, görüşərik", - deməsi Bettinin onun haqqında dediklərinin isbatı idi. Təhsil aldığı 16 saylı məktəbdə olarkən şagirdlərin və müəllimlərin əhatəsində özünü çox yaxşı hiss edən və öz hisslərini: "Elə bil doğmalarımın əhatəsindəyəm", - cümləsi ilə ifadə edən alim, elə bil yenidən o illərə qayıtmışdı. Bəli, bu, Lütfi-Zadədə bir neçə dəfə gördüyüm, onun xarakterində az da olsa, müşahidə etdiyim xüsusiyyətlərdir. Ona görə də alimə ilk sualım belə oldu:



**- Bakını 9 yaşınız olarkən tərk etmisiniz. Həmin illəri xatırlayarkən nələr yadınıza düşür. Azərbaycan mühiti sizə necə təsir edib?**

- Azərbaycan mühiti məndə tərslik və inadkarlıq xarakteri formalaşdırıb. İstənilən polemikada hansısa məqamda çaşmaqdan və ya ilişməkdən qorxmamaq - bu, daha çox türklərə məxsus xarakterdir. Və mənim xarakterim də məhz belədir. Mən çox inadcıl ola bilərəm. Ola bilsin ki, belə bir xarakterə malik olmağım qeyri-səlis məntiqin inkişafında faydalı oldu.

**Azərbaycan mühiti məndə tərslik və inadkarlıq xarakteri formalaşdırıb. İstənilən polemikada hansısa məqamda çaşmaqdan və ya ilişməkdən qorxmamaq - bu, daha çox türklərə məxsus xarakterdir. Və mənim xarakterim də məhz belədir. Mən çox inadcıl ola bilərəm. Ola bilsin ki, belə bir xarakterə malik olmağım qeyri-səlis məntiqin inkişafında faydalı oldu**

**-Vətəni Amerikada necə xatırlayırsınız?**

-Evimdə Azərbaycanın görkəmli bəstəkarları - Qara Qarayevin, Fikrət Əmirovun, Cövdət Hacıyevin, müğənnilərdən Şövkət Ələkbərovanın, Bülbülün, Lütfiyar İmanovun, Flora Kərimovanın kasetləri var. İmkan düşdükcə onları dinləyirəm.

**- Doğma dilinizi unutmusunuz?**

- Azərbaycan dilini yaxşı başa düşürəm. Sadəcə, səhv edə biləcəyimdən çəkinərək doğma dildə də danışmıram. Azərbaycan dilində təmiz danışmağım üçün 3-4 gün azərbaycanlıların arasında qalmağım bəs edər. Heç zaman azərbaycanlı olduğumu gizlətməmişəm, əksinə bununla qürur duymuşam.

**- Hələ uşaqlıqdan müxtəlif və fərqli ideyaların hökmran olduğu müxtəlifdilli cəmiyyətlərdə yaşamalı olmusunuz. Bu fərqli mühitlərdə özünüzü bir şəxsiyyət kimi necə formalaşdıra bildiniz?**

- Azərbaycanı doqquz yaşımda tərk etməli olmuşam. Bildiyiniz kimi, 1932-ci ildə sovet hakimiyyəti İran vətəndaşları olan azərbaycanlılarla bağlı yeni qərar qəbul etdi. Bu qərara görə, biz iki yoldan birini seçməli idik, ya sovet Azərbaycanında qalıb buranın vətəndaşlığını qəbul etməli, ya da ölkəni dərhal tərk edib getməli idik. Ailəmiz İrana qayıtmaq qərarına gəldi. Azərbaycanı tərk etdikdən sonra təhsilimi Tehranda Amerikatipli Alborz Kollecində davam etdirdim. Bu, missioner məktəbi olduğundan hər səhər kilsəyə getməli idik. Bura sovet ateist məktəbindən çox fərqli idi. Lakin mən sovet ateizminə, protestantlığa, müsəlman fundamentalizminə qarşı çox tolerant idim. Eyni zamanda, etiraf etməliyəm ki, bu mədəniyyətlərdən müəyyən fayda da əldə etmişəm. Bu, mənə geriyə baxarkən aydın olur. Məsələn, sovetlərdə elm və texnologiya daha yüksək səviyyədə idi. Onlar eyni zamanda, belə bir ideyanı təlqin edirdilər ki, sən əldə etdiyin hər bir şeyə görə cəmiyyətə borclusan. Bununla da sən eqoist ola bilməzdin və düşünürdün ki, başqalarına necə kömək edə bilərsən. İranda isə təhsil aldığım məktəbdə amerikan missionerlərinin əxlaqları mənə çox dərin təsir edib. Onlar milliyyətçi deyildilər və hər kəsə kömək etmək istəyirdilər. Tehranda təhsil aldığım universitetdə də Fransada təhsil almış professorların ziyalı mühiti də mənə böyük təsir etdi. Mən İrandan həm də səmimiyyət öyrənmişəm. Bu ölkənin insanları çox nəzakətli və dostluğa meyillidirlər.

**- Bəs Rusiya mühiti sizə nələri aşıladı? Axı sizin ananız rusdur?**

-Mən Rusiyada elmə, biliyə böyük hörmətin olmasını gördüm. Uşaqlıqda Dostoyevski, Çexov və Tolstoyun o qədər kitablarını oxumuşdum ki. Bu kitablar xeyirxahlığa əsaslanırdı və onların qəhrəmanları hər zaman şər qüvvə ilə mübarizə aparırdılar. Kitabxanamda 3000 min kitab var idi. Gənclik illərimdən biliyə elə böyük hörmətim var idi ki. Həyatımın erkən çağlarında mənə çox dərin təsir edən başqa bir amil də olub. Ailədə yeganə uşaq idim. Xatırlayıram ki, 12 yaşım olanda otağımın qapısı üzərinə "tək" sözü yazırdım. Bu, kimlərinsə onu oxuyub məni narahat etməməsi üçün idi. Vaxtımın çox hissəsini təkcə keçirirdim və bu, mənə başqaları kimi özümün təzyiq altında olmağımı hiss etdirmirdi. Həmişə özümü o qədər əlahiddə hiss edirdim, beləliklə də öz fərdi yolumla gedə bildim.

**- Və bu yol sizi Amerikaya apardı. Özünüzün dediyiniz kimi, arzularınızın ölkəsinə...**

- Alborzda oxuyarkən Sovet və Amerika məktəbləri arasında çox böyük fərq gördüm. Bu məktəbdə ilk dəfə olaraq Amerika xalqı, Amerika elmi və mədəniyyəti haqqında məlumat əldə etdim. Orada elmin inkişafı üçün yaradılmış şərait məni hələ məktəb illərindən Amerikaya çəkirdi. Və bu ölkəyə 1944-cü ildə köçdüm. Təhsilimi davam etdirmək məqsədilə Massaçusets Texnologiya İnstitutuna ərizə verdim. İki il sonra, 1946-cı ildə həmin universiteti elektrotexnika ixtisası üzrə magistr kimi bitirdim. Bir qədər sonra isə Kolumbiya universitetində müəllimliyə başladım və 1949-cu ildə doktorluq elmi dərəcəsi aldım. Çox keçmədən assistlikdən professorluğa qədər yüksəldim.

**- Uşaqlıq illərinizi indiki böyüməkdə olan uşaqların mühiti ilə müqayisə edəndə hansı fərqləri görürsünüz?**

- Uşaqlıq və gənclik illərimi 9 yaşıma qədər Bakıda, 19 yaşıma qədər isə Tehranda keçirmişəm. Geriyə dönüb baxanda düşünürəm ki, belə mühitdə böyüdüyüm üçün necə xoşbəxt olmuşam. Bu gün gənclərə təsir edən neqativ detallar var. Məsələn, içkiyə, narkotiklərə aludə olurlar.

**- Həyatınızın ən böyük uğuru olan qeyri-səlis məntiq üzrə ilk məqalənizi çap etdirəndə onun qəbul olunacağını düşünürdünüzmü?**

- Bəli, mən bilirdim ki, bu, çox vacibdir. Lakin heç zaman bunun dünya şöhrətli fenomen olacağını istəmirdim. Mənim gözləntilərim daha çox təvazökar idi. Elmi araşdırmalarımın əsasında belə bir fikir dururdu: təbii dilə əsaslanan real insan mühakimələri ənənəvi riyazi formalizmlər çərçivəsində verilə bilməz. O zaman mənim novator ideyalarım müxtəlif elmi dairələrdə, xüsusilə "xalis riyaziyyatçılar" arasında ehtiyatla, bəzi hallarda isə soyuq qarşılanırdı.

**- Böyük tarixi əhəmiyyətə malik olan qeyri-səlis məntiq bütün dünyada rezonans doğurub və elmdə yeni bir istiqamətə təkan verib. Bu gün bu nəzəriyyənin tətbiqi ən müxtəlif sahələri əhatə edir. Yəqin ki, buna görə çox məmnunsunuz?**

-Bu gün mən inkişafdan bəzən məmnun oluram, bəzən də yox. Lakin mənim özümün xudbin, eqoist fikirlərim yoxdur. Heç vaxt hiss etməmişəm ki, vacib insanam. Özümü başqaları kimi çox adi bir insan hesab edirəm. Yəni kim olmağıma böyük əhəmiyyət vermirəm.

**- Geriyə dönüb qeyri-səlis məntiqin inkişafına və onun tətbiqinə nəzər saldıqda öz ideyalarınızın həyata keçməsinə yardım etmək üçün fərqli nə etmiş olardınız?**

- Alimlərə və kompaniyalara mənim nəzəriyyələrimin onların işlərində nə dərəcədə faydalı ola bilməsini göstərməyə cəhd etmirdim. Belə şeyləri önə çəkmirdim. Əgər insanlar nə isə etmək istəyirlərsə, bu, çox gözəldir. Əgər istəmirlərsə, bu da yaxşıdır.

**- Bakıda 43 il bundan əvvəl olmusunuz və demək olar ki, aradan xeyli vaxt keçib. Anadan olduğunuz və uşaqlıq illərinizin bir hissəsini keçirdiyiniz doğma şəhər sizə necə təsir etdi?**

- İstər Bakıya səfərimdən, istərsə də, Prezident İlham Əliyevlə görüşümdən çox məmnunam. İlk dəfə Bakıda 1965-ci ildə birgünlük səfərdə olmuşam. Lakin budəfəki səfərim məndə çox böyük təəssürat yaradıb. Ötən dövr ərzində ölkə xeyli dəyişib. Bakıda böyük abadlıq və quruculuq işləri ilə yanaşı, elm və mədəniyyətin inkişafı da yüksək səviyyədədir.

**Ağanisə Sultanova**

(Ardı var)